**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İSTANBUL ŞƏHƏRİNDƏ İCTİMAİ MƏRKƏZLƏRİN MEMARLIQ ŞƏHƏRSALMA TƏŞKİLİ

| | |
|---|---|
| İxtisas: | 6405.01 – "Şəhərsalma, yaşayış məntəqələrinin planlaşdırılması, landşaft memarlığı" |
| Elm sahəsi: | Memarlıq |
| İddiaçı: | **Burak Kaan Yılmazsoy Ercan** |

Fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı–2023**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetinin Dizayn kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Azərbaycan Respublikasının əməkdar memarı, memarlıq üzrə fəlsəfə doktoru, dosent
**Yeganə Ərşad qızı Hacıyeva**

Rəsmi opponentlər: memarlıq doktoru, dosent
**Emir Fikrət oğlu Hüseynov**

memarlıq üzrə fəlsəfə doktoru, dosent
**Rüfət Rüfət oğlu Ağazadə**

memarlıq üzrə fəlsəfə doktoru
**Zahid Ənvər oğlu Məmmədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində fəaliyyət göstərən – FD 2.29 Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: memarlıq doktoru, professor
**Gülçöhrə Hüseyn qızı Məmmədova**

Dissertasiya şurasının katibi: memarlıq üzrə fəlsəfə doktoru, dosent
**Məlahət Tapdıq qızı Eynullayeva**

Elmi seminarın sədri: memarlıq doktoru,dossent
**Şəhla Şex Əli qızı Qəhrəmanova**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Tarixən formalaşmış mərkəzi şəhərlərin ümumi şəhər strukturlarında ictimai mərkəz məkanlarının mürəkkəb bir mühit təşkilləri mövcuddur. Bu şəhərlərin nüvəsi adlandırılan iri miqyaslı tarixi, mədəni, memarlıq abidələrinin yerləşdiyi ictimai mərkəzlərdir ki, zaman keçdikcə müasir memarlıq layihələlərini də özündə qəbul etməli çox funksiyalı mərkəz rolunu oynamalıdır. Əhali artımı və texnoloji inkişafa tab gətirmək gücünü özündə saxlaya biləcək ictimai mərkəzlərin müasir dövrümüzdə şəhərsalma problemi mövcuddur. İstanbul kimi iri şəhərlərin şəhərsalma prinsiplərindən biri də müasir dövrdə qeyri optimal, sistemsiz yaranmış və yaranmaqda olan ictimai mərkəzlərin ümumi şəhər üçün yaratdıqları qlobal problemlərin həll olunmasına ehtiyacın olmasıdır. Nəzərə alsaq ki, İstanbul tək Türkiyə üçün deyil, həm də dünya mədəni irsinin bir parçası olaraq öz şəhər məkanına gələnlərin sayı ilə də şəhərsalma probləmlərinin həll olunmasına ehtiyac duyur. Bu promləmlərin həll olunmasında ictimai mərkəzlərin məqsədə uyğun sistemli təşkil olunması öz həllini gözləyir. Bu baxımdan dissertasiyada İstanbul şəhərinin ictimai mərkəzlərinin şəhərsalma baxımından yaratdığı problemlərin həlli aktual mövzu olaraq elmi təhlillərə ehtiyac duyur.

**Məsələnin qoyuluşu.** İstanbul şəhərinin ictimai mərkəzlərinin yaranması, formalaşması təhlillərinin aparılmasında, dissertasiya işinin müasir elmi tələblərə cavab verən nəticələrinin, proqnozlarının verilməsində Azərbaycan, Türkiyə, Rusiya və xarici ölkələrin memarlıq və şəhərsalma üzrə tədqiqatçılarına müraciət edilmişdir. Belə ki, şəhərlərin yaranması, formalaşması təhlilləri əsasən, F.M.Hüseynov, G.H.Məmmədova, N.H.Nağıyev, A.Ə.Həsənova, N.C.Abdullayeva, E.F.Hüseynov, Y.Ə.Hacıyeva, R.R.Ağazadə, M.N.Mikayılova, N.O.Yusufova, Ş.Ş.Qəhrəmanova, Ə.Z.Vəkilova, S.X.Dadaşova və s. kimi tarix və şəhərsalma üzrə Azərbaycan alimlərinin elmi nəzəriyələrinə istinad edilmişdir. Həmçinin M.Karaman, A.Oya, A.Özdemir kimi tarix və şəhərsalma üzrə Türkiyə alimlərinin də elmi nəzəriyələrinə istinad edilmişdir.

Bunlarla yanaşı xarici ölkə alimlərinin müasir şəhərsalma elmi nəzəriyyələrinə də müraciət olunmuşdur.

**Dissertasiyanın məqsədi** İstanbul şəhər mühitində xidmətlə bağlı ictimai mərkəzlərin problemlərini təhlil etmək və həlli yollarını axtarmaq, təşkilində vacib olan rasional və əlverişli şəhərsalma prinsiplərini müəyyən edərək yaxın gələcək üçün proqnozlar verməyə nail olmaqdır.

Məqsədə uyğun dissertasiya gedişatında baxılan məsələlər aşağıdakılar olmuşdur:

1. İri şəhərlərdə ictimai mərkəz deyilən məkanların yaranması və inkişaf tarixi;
2. İctimai mərkəzlərin şəhərsalma strukturunda formalaşması və fəaliyyəti;
3. İstanbul şəhəri ərazisində ictimai mərkəzlərin təşkili prinsiplərinin kökləri;
4. İstanbul şəhərində ictimai mərkəzlərin memarlıq-planlaşdırma, kompozisiya xüsusiyyəti, şəhər strukturunda rayonlar üzrə onların yerləşdirilməsi və aparıcı rolu;
5. İstanbul şəhərinin ən iri yaşayış rayonu olan Bəyoğlunun ictimai mərkəzlərinin müasir təşkili problemlərinin həlli yolları.

**Dissertasiyanın tədqiqat obyekti** kimi İstanbulun planlaşma sərhədlərində olan bölgələrinin ictimai mərkəzlərin təşkili və Bəyoğlu rayonu üzrə məhəllələrin ictimai mərkəzlərin müasir təşkilinin təkmilləşdirilməsi tədqiqat obyekti kimi seçilmişdir.

**Tədqiqatın metodu.** Müasir şəhərsalma metodlarına istinad edilərək seçilmişdir: fundamental nəşrlərlə tanışlıq, layihə və elmi-tədqiqat təşkilatlarının tədqiq edilən mövzuya toxunan və əhatə edən materialların təhlilinin aparılması, fotofiksasiya metodu və şəhərin ayrı-ayrı rayondaxili təhlilində məhəllələrin özlərinin mərkəzlərin təşkilinə aid araşdırılmaların aparılması nəzərdə tutulmuşdur. Son illərin şəhərsalma layihələndirmə metodlarına müraciət olunmudur.

**İşin elmi yeniliyi** ondadır ki, ilk dəfə Türkiyə şəhərsalma irsi əsasında İstanbulun ictimai mərkəzlərinin memarlıq-şəhərsalma təşkili verilmiş və bu yolda ictimai mərkəzlərin müasir zaman tələbində təşkili problemləri şəhərin rayonları daxilində rolu və

mahiyyəti dəyərləndirilərək təkmilləşdirmə yolları müəyyən edilir. Əsas təkliflər və ictimai mərkəz formatı Azərbaycan şəhərsalma elmi və praktikasının tətbiqi yollarına müqayisəli təhlillərdən alınan nəticələrlə əsaslandırılmışdır.

**İşin praktiki əhəmiyyəti** tədqiqat nəticəsində əldə edilən və dissertasiyanın ana xətti olan ictimai mərkəzlərin əsas rayonlar və iri məhəllər üçün ictimai mərkəzlərin təşkili prinsipinin həyata keçirilməsinə aid layihə konsepsiyaları təklif olunur.

Dissertasiyanın sərhədləri İstanbulun əsas yaşayış rayonları olan Eyüp, Üskudar və Bəyoğlu və onun nəzdində olan məhəllələr mərkəzlərinin təhlilini əhatə edir.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işinin əsas müddəaları haqqında müəllif müxtəlif səviyyəli elmi konfranslarda - Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkil etdiyi "Doktorantların və gənc tədqiqatçıların respublika elmi konfransları"nda, AzMİU-da keçirilmiş müxtəlif elmi-praktiki konfransda və s. elmi tədbirlərdə məqalə və məruzələrlə çıxış etmişdir. Dissertasiyanın nəticələri Respublikamızda, Türkiyyə və Rusiya Federasiyasında dərc olunan elmi jurnallarda nəşr edilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.**

Tədqiqatın ümumi məzmunu kompüter yığımının 148 səhifəsində (254.180 işarə) və 69 illüstrasiya səhifəsində öz əksini tapmışdır. Giriş – 6039 işarə, I Fəsil –73.784 işarə, II Fəsil – 50.046 işarə, III Fəsil – 119.279 işarə, dissertasiyanın nəticə hissəsi – 5028 işarə və istifadə olunmuş ədəbiyyat siyahısı – 15.200 işarə ilə müəyyən edilmişdir.

## DISSERTASİYANIN ƏSAS MƏZMUNU

"İstanbul şəhərində ictimai mərkəzlərin memarlıq şəhərsalma təşkili" adlanan dissertasiya işinin birinci fəslində ictimai mərkəzlərin yaranması, şəhərsalma strukturunda formalaşması (dünya ölkələri timsalında), İstanbul şəhərində ilk ictimai mərkəzlərin yaranma tarixinin xronologiyası, müasir şəhər strukturunda ictimai mərkəzlərin yeri və təşkili problemlərini əhatə edir.

**Fəsil I. İctimai mərkəzlərin inkişaf tarixi** adlanan fəsil 3 bölmə, 4 yarımbölmədən ibarətdir.

**1.1. İctimai mərkəzlərin yaranması**

İctimai mərkəzlərin yaranması bütün ölkələrdə olduğu halda iri şəhərlərin ən vacib struktur elementi kimi qəbul olunub və ölkələrin özünəməxsus ifadəliklər altında (aqora, forum, termlər, baş ticarət küçələri və s.) məhşurlaşmışdı. Aqora – qədim yunanıstanın xalq yığıncaqlarının meydanlarının adıdır. Romada Forum bazar meydanı olaraq həmdə hakim siniflərin imoeratorların siyasi mərkəzləri kimi tanınmışdır. Sonrakı mərhələdə onların funksiyalarına istirahət-əyləncə yerləşgələri qatılıb onlara termlər də deyilmişdir.

Memarlıq mühitinin təkmilləşdirilməsi dövründən forumların quruluşu çox kiçik olsa da ümumi şəhər məkanın bir mərkəzinin təşkili ilə bağlı yaranmışdır. Xüsusi məqsədə yönəlmiş digər ortaq məkanlar da olmuşdu ki, onlar ictimai funksiya daşımaqla (zikkurat) pilləvari platformalar kimi şəhərin mərkəzi məkanında yerləşdirilirdi və ya həcmi bunlar sırasına iri həcmli məbəd komplekslərin şəklində yığılırdı. Onlar əsasən b.e.ə. XIII-XII əsrlərdən V-IV əsrlərə qədər dövrdərdə şəhər daxilində (Parfenon, Erextion, Nika-Propileylər və s.) qeyri yaşayış mühitlər kimi şəhər mərkəzlərində meydanları xatırladan məkanlara çevrilirdi. Bu mənada Afina Akropolu xüsusi məna kəsb edir və çox funksiyaya malik olan bir məkan kompozisiyası yaratmışdır.

Sonrakı mərhələdə qədim İranın Persopol şəhərində 520-ci ildə şəhər mərkəzində ictimai funksiya daşıyan yerləşgələr təşkil edilməsilə belə ictimai mərkəzlərin mahiyyəti və formaları da dəyişirdi. Məsələn, orta əsrlərdə qala şəhərlər daxilində şəhər mərkəzlərinin funksiyalarını baş ticarət küçələri təşkil edirdi. İslamın gəlişi ilə Şərq müsəlman şəhəri strukturunda artıq saray və dini mərkəzlər tipli məkan təşkil olunurdu. Bunlardan fərqli Avropa ölkələrində və Rusiyanın iri şəhərlərində də şəhər mərkəzləri onların baş idarəetmə bina və komplekslərin yerləşdtyi meydanları olurlar. Bu gün İstanbulu Bakı şəhəri ilə müqayisə etsək görərik ki, sistemli ictimai mərkəzlər daha çox öz ifadələrini Bakı şəhərinin şəhərsalma strukturunda daha çox qanunauyğun təşkil olunmuşdur.

## 1.2. İctimai mərkəzlərin şəhərsalma strukturunda formalaşması

İctimai mərkəzlərin şəhərsalma strukturunda formalaşması həm də şəhərlərin mərkəzi hissələrinin formalarını təşkil etdi bəzi hallarda isə onların özləri şəhər strukturların yaranmasına təsir edirdi. Onların bəzi elementləri şəhər məhəllələrinin plan-məkan daxilində olan xidmət mərkəzləri ilə sıx əlaqəli olmaqla bir mürəkkəb şəbəkə təşkil edirdi. Belə hal demək olar ki, bütün Yaxın və Orta Şərq ölkələri şəhərləri üçün səciyyəvi idi. Bu mənada «bazar» anlayışı da bu dövr üçün şəhər yaradan faktor kimi özünün şəhər strukturunda ən önəmli yerini təsdiq etdi (Səmərqənd, Təbriz, Bakı, Hələb və s. şəhərlər timsalında) bu vəziyyət öz yerində iki təşkili meyarı ön plana çəkdi:

1. İctimai mərkəzlərdə iqamət komplekslərin yerləşməsi;
2. Ticarətin genişləndirilməsi ilə müəyyən ictimai funksiya alan yerin təyini.

Belə ki, orta əsrlərin sonunda şəhərlərin sosial-iqtisadi strukturu yeni mahiyyət almaqla öz memarlıq-planlaşma xüsusiyyətlərini də dəyişdirmək zəruriyyətində qaldılar və zaman üçün vacib sayılan şəhərlərin hissələrə bölünməsi ilə zonalarını müəyyən etdilər. Belə ki, su hövzələrinin sahillərində, ticarət yolları kənarında yerləşən Fransa, İngiltərə, Almaniya, Vyana, Paris, London kimi şəhərlərin yeni şəhərsalma nailiyyətlərində özünü göstərdi və onların ictimai mərkəzlərini bir məkan kimi təqsdiqlədi[1].

Beləliklə də, şəhərin XIX əsrdə zonalaşma prosesində genişləndikcə ictimai mərkəzlərdə şəhərlərin daxili hissələrində yerləşməklə bir neçə funksiya (idarəetmə, ticarət, din, məişət və s.) daşıyırdı. Məkan baxımından onlar ictimai mahiyyət daşıyan mərkəzlər sayılırdı. Bu halda İctimai mərkəzlərin memarlıq obrazı özündə yerin tarixini, təbii-iqlim, milli kolorit, fiziki, iqtisadi, sosial və bədiilik faktorunu da əks etdirir və ümumşəhər xidmət

[1] Arü, K.A. Türk Kenti. Türk Kent Dokularının İncelenmesinde ve Bugünkü Koşullar İçinde Değerlendirilmesine İlişkin Yöntem Araştırması // - İstanbul: YEM, Yapı Endüstri Merkezi Yayınları, - 1998. – 288 s.

sistemlərinin tərkib hissəsi kimi özlərini 3 qrup təşkilində göstərirdi.

1. İdarəetmə və inzibati tikintilər toplumunda;

2. Mənəvi, mədəni, fiziki inkişafı təmin edən tikinti kompleksləri toplusunda;

3. Ticarət, məişət, nəqliyyat rabitəsini təmin edən tikililər qrupu.

Müasir şəhərsalma nəzəriyyəsi və praktikası şəhər və onun zonalaşma prosesində mərkəz və onun əhatəetdiyi məkanları planlaşdırır[2]. Biz şəhərin əsəs mərkəzi, ona yaxın mərkəzlər vəya şəhər əhəmiyyətli, ölkəəhəmiyyətli, region əhəmiyyətli, rayon əhəmiyyətli, mikrorayon əhəmiyyətli mərkəzlər və onların qanunauyğun formalaşma prinsiplərinimüasir dövr üçün aydınlaşdıraq:

1. İctimai mərkəzlər - süni yaradılmış memarlıq mühitidir və bu mühit bir vəya bir neçəəlaqəli ictimai həyatın təşkili prosesidir.

2. İctimai mərkəzlər, insanların qısa və uzun müddətli lazım olan proseslərin həyata keçirilməsini təbiət faktorlarından qoruyan məkandır.

3. İctimai mərkəzlərdə layihələndirilən memarlıq, həcmi və məkan forması öz funksional təyinatını sosial prosesin aparılmasında təminat rolunu oynayır.

4. İctimai mərkəzlərin formalaşması müasir həyat tərzinin tələblərinə tam cavab verməlidir.

5. İctimai mərkəzlər şəhərsalma, təbii, iqlim, tarixi və milli, konstruktiv, fiziki, texniki, iqtisadi, sosial və bədii memarlıq faktorlarını özündə cəmləyir.

Müasir dövrümüzdə, ictimai mərkəzlər şəhərsalmada xidmət sisteminin tərkib hissəsidir və bu hissələr əsasən 3 qrup daxilində formalaşmışlar:

1. İdarəetmə və administrativ tikintilər;
2. Mənəvi, mədəni, fiziki inkişafı təmin edən tikililər;
3. Ticarət, məişət, nəqliyyat rabitəsini təmin edən tikililər.

1970-ci illərdən 90-cı illərə qədər ümumi Sovetlər Birliyi

---

[2] Aydemir, Ş. Kentsel Alanların Planlanması ve Tasarımı / Ş.Aydemir, S.E.Aydemir, Beyazlı D. [və b.]. – Trabzon: Akademi Kitabevi, - 2004. – 500 s.

məkanında şəhərsalma strukturlarında ictimai mərkəz anlayışı bir layihələndirmə qanun və qaydaları əsasında aparılmışdır. Bu ictimai mərkəzlər, aşağıdakı kateqoriyalara ayrılmışdır:

- Ölkə əhəmiyyətli ictimai mərkəz;
- Şəhər əhəmiyyətli ictimai mərkəz;
- Rayon əhəmiyyətli ictimai mərkəz;
- Mikrorayon əhəmiyyətli ictimai mərkəz;
- Məhəllədaxili mərkəz.

### 1.3. İstanbul şəhərində ictimai mərkəzlərin yaranması

İstanbul şəhəri tarixən yunanca ona verilən adı «şəhərə gedirəm» təsdiqləmiş və uzun inkişaf yolu keçərək bu gün Türkiyyənin ən böyük sənaye, ticarət, mədəniyyət və nəqliyyat mərkəzinə çevrilmişdi. Bosfor boğazının hər iki sahilində yerləşən İstanbul özündə 14 inzibati rayonu və çoxsaylı yaşayış məhəllələrini cəmləyir və onun strukturqurucu elementi kimi çıxış etməkdədir.

İstanbul şəhərin ictimai mərkəzlərinin yaranması və inkişafı bir neçə mərhədədən keçmişdir (e.ə. 3000 il, bizans dövrü, antik dövr – e.ə. 196-cı il, Roma şəhəri – b.e. 330-cu il, bizans imperatorluğu dövrü – 330-1453-cü illər), Roma paytaxtı Konstantinopol (395-1204-cü illər arası). İstanbul şəhəri öz gücünü və qüdrətini məhz bu mərhələlər dövründə öz şəhər silueti, məbədləri, dövlət strukturları və ticarət mərkəzləri hesabına təsdiqləmişdi.

Beləliklə, bu dövrdə «şəhərin beyni» adlanan ictimai məkanlar formalaşmağa başlamışdı. Bu ərəfədə şəhərin struktur quruluşunu  mərkəzi hissələrdən ibarət kiçik mərkəzlər toplumu kimi qiymətləndirmək olar. Bu zaman saray və müqəddəs məkan sayılan Eyüp rayonunda məscidlər artıq sistem kimi təsdiqlərini tapdılar. Belə ki, şəhərin ən önəmli yerlərində məscid, mədrəsə, imarət, hamam, kimi tikililər yüksəlməyə başladı.

İstanbul şəhərinin 20-50-ci illər arasındakı inkişafını ölkədə Respublika quruluşunun yaranması ilə bağlamaq olar. Respulikanın elan edilməsi ilə bağlı onun dəst xəttini ifadə edən planlaşma xarakteri İstanbulun şəhərsalma məkanında yeni strukturun meydana gəlməsinə səbəb oldu.

Belə vəziyyət şəhər daxilində və xaricdən əhali miqrasiyasının nəticəsində ictimai mərkəzlərdə differensiallıq xüsusiyyətini ortaya

gətirdi. Beləki, 1990-2010-cu illər arası əsasən güc mərkəzlərini təşkil edən sənaye müəssisələrinin çəpərlənməsi ilə bağlı həmdə ictimai mərkəzlərin öz funksiyaları daxilində sıxlaşma nəticəsində qarışıq struktur almaqla xidmət sektorunda yeni təşkil formasını yaratdı. Bununla da şəhər daxilində olsalar da ictimai mərkəzlər yaşayış sektorlarından ayrılaraq sərbəst makroformalı yeni ictimai mərkəzlərin layihələndirilməsi öz təsdiqini tapdı, lakin eyni zamanda bu prosses şəhərin yayılmasına səbəb oldu.

### 1.3.1 Bizans dövrü (e.ə. 667- bizim eranın 332)

"İstanbulun məkan quruluşunun tarixi təkamülünə bir baxış" İlber Ortaylınınelmi təhlilləri həmin dövrdə, yəni Bizans dövründə İstanbulda dəyişikliyi meydana gətirən yeganə faktor şəhərin artıq bir dinə sahib olması ilə izah olunmuşdur. Həm də bu dinin gətirdiyi içəqapalı və məhəllə mədəniyyətinin şəhərdə hakim olmağa başladığı göstərilmişdir. Dini monumental strukturlar bu dövrdə tikilmişdir (Ayasofya), Şəhərdəki ləkə şəklində böyümə qərbə doğru daha çox, Pera qisminə daha az istiqamətdə böyüməyə davam edir. Uc qisimlərdə inşa edilən qışlaqlar bu genişlənmə nəticəsində məskunlaşma mərkəzlərinin arasında qalmağa başlamış və daha da qərbə sürüşdürülmüşdür. Feodal bir görünüş təsviri yaradan şəhərdə ticarət hərəkətliliyi artaraq davam etmişdir. Yenə bu dövrdə Səlib yürüşləri və s. hadisələr nəticəsində şəhər yağmalanmış, talan edilmiş, monumental tikililərdən bır qismini itirmiş, ya da ziyan görmüşdür.Yağmalanma nəticəsində bu dövrdə iqtisadi böhran yaşanmışdır. Pera qisimində isə məskunlaşma ləkəsi yavaş yavaş hiss edilməyə, görünməyə başlamışdır.

### 1.3.2 Osmanlı dövrü (XV-XVI əsrlər)

Növbəti tarixi mərhələbu dövrdə İstanbul şəhərinin Anadolu və Rum elinin mərkəzi, dövlət gücünü ifadə edən, strateji əhəmiyyətli bir şəhər kimi təyin etmək mümkün olmuşdur. Topxana, Barıtxana, liman və s. məkanları ilə dövlət siyasətini həyata keçirən sarayları ilə yenə də öz əhəmiyyətini geniş bir ərazi üçün bərpa edən bir şəhər - İstanbul yaranmışdır. Şəhər məkanını formalaşdıran əsas elementlər saraylar, liman, məscid, külliyyatlar (kitablar), hərbi, inzibati, maliyyə və dini proseslərin yaranması və idarəolunması üçün "Şəhərin Beyni" kimi ifadə oluna bilən məkanlar toplusu yaranmağa başlamışdır. Mərkəzi hissənin

əhatəsində isə yenidən müxtəlif funksiyalı məkanlar toplanmışdır.

Osmanlı imperatorluğu dövrü (1453-1922), şəhərin ilk təmir işlərinə yıxılan qala divarlarından başlanılmışdır. İstər padşahın əmrləri ilə, istərsə də qüdrəti olanların səyləri ilə şəhərin müxtəlif ətraf ərazilərində məscid, mədrəsə, imarət, hamam, darülşəfa kimi tikililər yüksəlməyə başlamışdır. Oya Akının "Antik dövrdən günümüzə İstanbul" təhlillərində qeyd olunur ki, padşah saray inşasına da bu cür ictimai mərkəzlərə yaxın olmaq üçün ilk tikdirdiyi sarayda oturmağı uyğun bilməyərək bugünkü Topkapı Sarayını "Saray-ı Cedîd-i Amire" adıyla inşa etdirmişdir.

İctimai mərkəzlərin təhlilində bu dövrü dağılmış, sistemsiz, bir-biri ilə uzun məsafələrdə yerləşmiş kiçik mərkəzlərin yaranması dövrü kimi dəyərləndirə bilərik.

### 1.3.3 Respublika dövrü İstanbul (1923-1950)

1923-cü ildə Türkiyədə Respublikanın elan olunduğu bir dövrdə, Dövlət siyasətinə əsaslanan, onun dəst-xəttini ifadə edən Xalqçı və Çağdaş işığında, milli memarlıq üslubunda inşa edilən iş yerləri, ictimai və yaşayış binalarının yaratdığı memarlıq mühiti təşkilləri İstanbul şəhərsalma məkanında yeni, fərqli bir struktur toplularının meydana gəlməsinə səbəb oldu. Respublikanın elan olunmasına qədər hər şəhərdə aparıcı siyasət yürüdən, öz ifadə tərzini qoruyan bir şəhərdə 1930-cu ildə daha aktiv bir şəkildə sərmayə qoyuluşu ilə izlənilən ticarət və xidmət sektorunun sürətli inkişafı üzə çıxmağa başlamışdır. Şəhər planlaşdırılmasında yeniliklər, həmçinin daha çox meydanlar, bulvar küçə şəbəkəsi, açıq hava stadionları, sərgi və opera salonları bir ictimai mərkəz anlayışı ilə nümayiş etdirməyə başladı. Bu həm də şəhər və sahil harmoniyasını yaradaraq, çimərlik, su idmanı karnavallarının təşkili ilə yeni bir həyat nümayiş etdirirdi.

Bu dövrdə şəhər artıq paytaxt və idarəçilik (hakimiyyət) şəhəri olma xüsusiyyətindən sıyrılıb bir sərmayə şəhəri və necə deyərlər, pulun işləndiyi bir şəhər halına gəldi. Ayrıca şəhərin abadlığı baxımından, Osmanlı dövründəki zəmanəyə uymamaq problemlərinə də yönəldi. Şəhərin müasirləşdirilməsi üçün plançılar dəvət edildi yol, prospekt, stadion, meydan kimi şəhər məkanları yaradıldı. Osmanlı dövrünün sonlarına qədər Bizansdan etibarən tarixi

yarımadada yəni divarların içində qalan şəhər bu dövrdə Boğaziçi və Mərmərə sahillərinə doğru yayıldı. Divarların daxilindəki bölgə köhnə canlılığını və məşhurluğunu itirməyə başladı.

### 1.3.4. Istanbul şəhəri 1950-1980-ci illər təhlillərində

Beləliklə, İstanbul kimi iri bir şəhərin 1950-1970-ci illəri əhatə edən məkan təşkili sistemini qısaca qiymətləndirsək, aşağıdakı nəticələrə gəlmək olar:

- Bu dövrdə Topqapı, Ramin, Qazi Osman Paşa tarixi ərazilərində və ya daha çox şəhər mərkəzi anlayışı ilə formalaşmış ərazilərində, sənayenin müxtəlif növlərinin yekunlaşması ilə iş yerləri üçün kütləvi surətdə şəhərə axın edən gəlmələrin, həm də yaşayış məkanları ərazini bütünlüklə əhatə etmişdir;
- Kiçik ölçülü sənaye təşkilatları, ticarət və yaşayış sahələri bir-biri ilə qarmaqarışıq şəkildə yeni şəhər strukturları yaradırdılar;
- Yenə də bu dövrdə nəqliyyat infrastrukturu yaranırdı. Abadlaşdırma işləri aparılırdı. Hər bir şəhər məkanında yenidənqurma proseslərinin aparılmasına başlanılmışdır.

1970-80-ci illər dövrünü və şəhər məkanında yaratdığı təsirləri qiymətləndirsək aşağıdakı nəticələrə gəlmək mümkündür:

• 1973-ci ildə I Boğaziçi körpüsünün açılması, İstanbul şəhərinin məkan formalaşmasının bir qırılma nöqtəsi kimi qarşımıza çıxır. Bu dövrə qədər şəhərin orta və yüksək gəlir gətirən mənzil sahəsi olaraq təyin edə biləcəyimiz Şərq yaxası (E-5 dəhlizinin şimalı), sürətli bir sənayeləşmə təsiri ilə ictimai məkanları və ona paralel olaraq az gəlir gətirən mənzil sahələri inkişaf etməyə başlamışdır.

• Şəhərin Boğaziçi sahilləri və London Asfaltının cənubu orta və yüksək gəlir gətirən mənzil sahəsi olaraq seçilərkən, London Asfaltı ətrafı və şimalı, sənaye sahələri və bu sahələr ətrafında inkişaf edən aşağı gəlir gətirən mənzil sahələri sıxışdırılmağa başlanmışdır.

• Şəhərin ictimai mərkəz funksiyaları hər iki tərəfdə müəyyən nöqtələrdə sıxlaşaraq alt mərkəzləri müəyyənləşdirərkən (Şişli, Mecidiyeköy, Bakırköy, Kadıköy kimi), bir tərəfdən də nəqliyyat arteriyaları boyu (Bağdad prospekti kimi) xətti böyümə meylində idi.

• Şəhərin yağ ləkəsi şəklində xaricə doğru böyüməsindəki əsas təyinedici güc sənaye sahələridir.

Beləliklə, yuxarıda göstərilən şəhərsalma strukturunu yaradan

yeni faktorlar İstanbul şəhərində ictimai mərkəzlərin irili-xırdalı formalaşmasına təsir göstərən faktorlar kimi qiymətləndirilə bilər.

**Fəsil II. İstanbul şəhər ərazilərində ictimai mərkəzlərin təşkili prinsipləri** adlanan fəsil 4 bölmə və 4 yarımbölmədən ibarətdir.

**2.1. İstanbul şəhərinin müasir şəhərsalma strukturunda ictimai mərkəzlərin yeri (1990-2010- dövrün İstanbulu)**

1990-cı ildən sonra yeni istehsal əlaqələri və xidmət sektorunun yenidən təşkili və təklifi ilə birlikdə gəlir gətirən yaşayış kompleksləri öz daxilində hər cür insan üçün lazım olan mikrofunksional məkanlar təklifi ilə formalaşmaqdadırlar. Şəhərin makroformu və yaşayış sahələri şimal istiqamətdə daha çox istiqamət götürmüşdür. Fərqli ictimai təbəqələrin mənzil sahələri şəhərin makroformu tək şimal istiqamətlərdə deyil, həm də şərq və qərb istiqamətlərdə yetərincə geniş sahələri əhatə etməkdədir.

2010-cu ilə keçiddə makroform qiymətləndirilməsində İstanbul üzrə 4 əsas böyümə dəhlizi ortaya çıxmışdır. 1-ci Böyümə: Kiçik Çəkməcə gölünün şimal hissəsində - Bahçeşəhər, Əsənkənd, Başakşəhər, Kayabaş, İspartaqüllə, Arnavutköy, Tasoluk, Boğazköy, Tasdələn ərazilərində təyin olunmuşdur. Bu ərazilərdə əvvəldən şəhərin içməli su hövzəsi kənd təsərrüfatı, meşə sahələri, mövcud olmuşdur. 2-ci Böyümə: Maslakdan başlayaraq Sarıyer, Bahçeköy, Zekeriyaköy, Kilyos ərazilərini əhatə edir. 3-cü Böyümə: Ümraniyedən başlayaraq Çekmeköy, Sancaktəpə və Silə istiqamətində yerləşən əraziləri əhatə edir. 4-cü Böyümə: Kurtköy, Aydınlı, Orhanlı, Akfirat istiqamətində yerləşən əraziləri əhatə edən dəhlizlərdir. Yuxarıda qeyd etdiyimiz kimi, bu məkanların yaranması ilə istanbul şəhərinin ekoloji vəziyyətində ciddi dəyişikliklər gətirilmişdir, təbii landşaft öz strukturunu, quruluşunu itirmişdir.

**2.1.1. İstanbulda ictimai mərkəzlərin nəqliyyat və rabitə əlaqələrinin şəhər planlaşdırılmasında təhlili**

Türkiyədə 1970-ci ildə nəqliyyat-şəhərsalma layihəsi işlənilmişdir. Bu layihə xarici mütəxəssislərin də iştirak etdiyi Boğaz Körpüsüdür. Onun bir nümunə kimi götürülməsi həm İstanbul, həm də Ankara metropoliten əlaqələrinin də dəyərləndirildiyi bir layihə olmuşdur.

“İstanbul Ulaşım Ana Planı” 2011-ci il - İstanbul nəqliyyat planında ümumi işlənilən pozisyalar bunlardır:

- İstanbulun tarixən formalaşan mövcud nəqliyyat infrastrukturu;
- İstanbul əhali sayına görə hər bir kateqoriya üçün nəqliyyatdan istifadə təhlili;
- İstanbulun müxtəlif kateqoriyalı nəqliyyat yol şəbəkəsinin təhlili;
- İstanbul dəmir yol metro nəqliyyatı;
- İstanbul dəniz yolu.

2014 qədər İstanbul üzrə planlaşdırılmış:

Nəqliyyat yolları - 29.861 km olmuşdur.

Dəmir yolu – 231 km (2023-illər arası nəqliyyatın inkışafı. Istifadəçilərin dəyişən nisbət modelinin açılışı verilmişdir:

1. Çatalca-Silivri-Böyukçəkməcə;
2. Arnavutköy-Əsənyurt-Bəylikdüzü-Ovcular-Başak şəhər;
3. Küçükçəkməcə-Eyub-əsənlər-Bağcılar-Sultangazi-Qazi-Osmanpaşa-Bayram paşa- Zeytun Burnu- Fatih;
4. Sarıyer-Şişli-Beşiktaş-Beyoğlu;
5. Üsküdar-Beykoz-Kadıköy-Kartal-Maltəpə-Ataşəhər-Ümraniyə;
6. Çəkməköy-Sancaq təpə-Sultanbəyli-Pendik-Şilə;
7. Tuzla.

Beləliklə yuxarıdakı sıralama nömrələri ilə təhlillər aparaq:

Sarıyer-Şişli-Beşiktaş-Beyoğlu daha çox əhali və xidmət, iş yerləri, ictimai mərkəzin ən böyüyü kimi qiymətləndirilir. Çünki 5 km ərazi qəti ilə bütün şəhər yaradan strukturlarla rabitə yaradabilən əhalinin istifadəsindədir.

Çatalca-Silivri-Böyükçəkməcə ən az əhali, xidmət növləri və iş yerləri vardır, ictimai mərkəzi yoxdur. 48 km ərazi ilə bütün şəhər yaradan strukturlarla rabitə yaradan əhalinin istifadəsindədir.

İstanbulun Anadolu ərazisi üzrə transfer mərkəzlərinin təyini verilmişdir.İstanbulun Avropa ərazisi üzrə transfer mərkəzlərinin təyini verilmişdir. Bu təyinat aşağıdaki pozisiyaları özündə təsbit edir:

1. Transfer mərkəzlər (mövcud) (məsələn, Dəniz yolunu

bitirib, Dəmiryolla hərəkətə davam edən insanlar üçün avtomobil dayanacaqları);

2. İnşaatı davam edən transferlər;
3. Layihələndirilən transferlər;
4. Layihəsi təsdiq olunan;
5. Ərazisi yeni təyin olunan (seçilən);
6. Layihələndirilən fərdi və ictimai nəqliyyat dayanacaqları;
7. Ərazisi yeni təyin olunan (seçilən) nəqliyyat dayanacaqları;
8. Avtovağzallar (Terminal) layihə vəziyyəti;
9. Ərazisi yeni təyin olunan Avtovağzallar.

Xüsusi qeyd etmək lazımdırki, İstanbul şəhərinin ümumi nəqliyyat infrastrukturunun özəyi Avropa və Asiya qitələrini bir-biri ilə bağlayan dünya miqyasında 3 məşhur körpüsüdür. Bunlar, 1973-cü ildə salınmış 15 Temmuz Şehitler Körpüsü, 1988-ci ildə Fatih Sultan Mehmet Körpüsü, 2016-cı ildə Yavuz Sultan Selim Körpüsüdür.

## 2.2. İstanbul şəhər ərazilərində mərkəzlərin layihə-planlaşdırma prinsipləri

İstanbul şəhər ərazisində şəhərsalma layihə-planlaşdırma prinsiplərinə xüsusi tələblər vardır. Son illər Ana Plan – Baş plan layihələrində təhlillərin aparılmasında şəhərsalma üzrə qlobal problemlər də öz əksini tapmışdır.

Azərbaycan şəhərsalma layihə prinsiplərinə də uygun gələn bu planlaşdırma layilələrinin ən son illərdə hazırlanmış “İstanbul metropoliten alanı-Kentsel Ulaşım Ana Planı” (2011) layihəsi çərçəvəsində əhali artımı, nəqliyyat şəbəkəsi, iş yerləri və alış-veriş mərkəzləri üçün verilən təhlillərə istinad etmək, İstanbul şəhər ərazisində mərkəz təşkilinə aydınlıq gətirilməlidir. 153.900 ha ərazi, əhalisi 16 milyon 67 min nəfər 2020-ci ilin məlumatları ilə İstanbul şəhərini hədəf götürəcəyik.

İstanbul şəhərinin mövcud ərazisi üzrə xidmət sektorunun bütün funksiyaları və bölmələri təhlil edilmişdir. Yəni xidmət tələbi,əhali tələbi ilə müqayisəsi verilmişdir. Hər bir rayon üçün bu nisbətlər dəyişkəndir. əhalinin tələbi mərkəzdə Kadıköy, Üsküdar, Beşiktaşda bərabərlik nisbətindədirsə, mərkəzdən kənar ərazilərdə həm şərq, həm də qərb rayonlarında bu nisbətlər bərabərliyi itir,

xidmət və tələb balansı pozulur. İçtimai mərkəzlər şəbəkəsinin ən sıx tor bağlılığı mərkəz vəətraf rayonların muqayisəsindəəsasən pozulmuş görünür. Ərazidə alt mərkəzlər öz rolunu çox sıx şəkildə Beşiktaş, Beyoğlu, Fatih vəs. cəmləyibsə, lokal mərkəzlər Küçükçəkməcə, Bahçalıevlər, Bağcılar, və.s. öz funksiyalarını yerinə yetirirlərsə, Çatalca və Silivri rayonlarında ancaq yerli mərkəzlər mövcudluğunu qoruyub saxlayırlar.

Onu da qeyd edək ki, İstanbul üçün bütün şəhər ərazisində ictimai mərkəz formatı daha çox funksiyalı alış-veriş mərkəzləri anlayışında ifadə olunur. Müasir dövr İstanbul üçün həm tarixi, həm də xidməti alış-veriş mərkəzlərinin məkan təşkillərini bir ictimai mərkəz statusunda təqdim etsək, o zaman bu sistemi yaradan məkanlar bunlardır:

- Şişli, Beşiktaş və Beyoğlunda 21 mərkəz;
- Bağcılarda 14 mərkəz;
- Kartalda 4 mərkəz;
- Kozyatağında 7 mərkəz mövcuddur

**2.3. Istanbulun Üsküdar və Eyüb rayonunda ictimai mərkəzlərin təşkili prinsipləri**

Belə ki, şəhər tərkibində nəqliyyat şəbəkəsi yeniləşdikcə onun sərhədlərində cəlbedici yerlərin sayı artır, yəni xidmət nöqtələri alıcıya yaxınlaşaraq tələblərini daha rahat ödəyə bilir. Belə ki, İstanbulun 4 tərəfə genişlənməsi nəticəsində yaşıllıqlar azalmaqla yaşayış sahələrinə yol aşılır, onların çoxalması isə ekoloji durumu pisləşdirir. Lakin 2011-ci ildə layihələndirmiş baş planında İstanbulun nəqliyyat sisteminə olan təsir artır, çünki onun alt hədəfləri məhəllələr qurulmasına hədəflənmiş görünür.

Üsküdar bölgəsinin tarixi inkişaf prosesində ictimai mərkəzlərin xəritələr üzərində qiymətləndirilməsinin təhlillərinə başlayaq: (Köhnə İstanbul xəritələri).

- Üsküdar, Mərmərə dənizi ilə İstanbul Boğazı sularının birləşdiyi yerdə Kocaeli yarımadasının ucunda Kadıköy, Beykoz və Ümraniye ilə sərhədlənən təpələrdən ibarət, dərin və dənizə açıq bir vadi içində yerləşən bir ərazidir.

Üsküdardakı fiziki eynilik analizində mənzil qruplarını istifadə müxtəlifliyinə görə üç qrupda araşdıra bilərik:

1. Ticarət binaları;

2. Altı ticarət, üstü mənzil olan binalar;

3. Yalnız mənzil olaraq istifadə edilən binalar.

Digər bir İstanbulun rayonu olan Eyup bölgəsində ictimai binaların bir lokal mərkəz kimi formalaşması özünü ilk öncə xarakterik tikinti prinsipin və önəmli cəhətləri göstərmişdi. Eyup bölgəsinin tarixi inkişaf prosesini izləsək görərik ki, orada daha çox dini binalar yerləşdiyindən din funksiyası bölgədə üstünlük təşkil etdiyindən burada yerləşən yaşayış evləri yaşıllıqlar arasında öz obrazı ilə fərqlənir.

Bu rayonun urbanizasiya prosesinə sürətli addım atmasını ticarət və sənətkarların artması və sənaye işçilərinin məskunlaşması ilə bağlamaq lazımdır. Bu rayon öz mədəni qurluşunu qismən də olsa qoruya bilmiş məkanlardan biridir. Qala divarları xaricində olsa da Eyup rayonunda böyük abadlıq işləri aparılmışdır. Bu özünü daha çox sahildə sarayların inşası və ətraflarının abadlaşdırılması ilə bağlı idi.

İstanbulun şəhərsalma tarixini reallaşdığı bölgələrdən biri sayılan Cihangir rayonunun tərkibində olan əhali müxtəlif sosial siniflərə malik olduğundan yaşayış tikililərin səviyyələri də müxtəlifdir. Bir hissəsində çiy kərpicdən tikilən evlərin memarlığı çox sadədir. Bura aşağı təbəqəli yaşayış məskəni kimi də inkişaf etdiyindən ictimai xidmət obyektləri onların kiçik mərkəz təşkil etdiyi məkanlarda yerləşir və xidməti baxımdan da zəifdir. Onun əksinə Ox meydanı deyilən rayon mərkəzi olaraq miqyasca böyük məkandır. Bura üçün ərazi planlaşdırılmasının layihəsi çoxdan tərtib edilmişdir. O həm də şəhərin ən önəmli nəqliyyat oxu üzərində yerləşməklə şəhərin nəqliyyat «onurğasını» təşkil edir. 160 hektar ərazi tutan bu məkan tarixən əhalinin tədris mərkəzlərinin (mədrəsə tikintisində) biri olmuşdu.

Bu gün İstanbul tarixi və memarlığı qədim olan şəhərlərdən çox biznes statusu yüksək olan nəhəng şəhərdir. Onun rayon bölgə və məhəllələri nəzdində olan ictimai xidmət obyektləri vahid bir strukturda toplum kimi fəaliyyət göstərməklə formalaşması da müəyyən prinsip üzrə qurulmuşdu (böyükdən kiçiyə istiqamətində). Bu rayonların arasında ən nümunəvisi Eyup bölgəsidir ki o regional

mərkəz xüsusiyyətinə malikdir. Beləki, İstanbul şəhərinin ictimai mərkəzlərin yerləri miqyas və xidmət növlərini təyin edən əlbətdəki böyük dəyişikliklər keçmiş yaşayış sahəsinin içindədir.

### 2.4. İstanbul ərazi planlaşdırma layihəsi prinsipləri (Oxmeydanı timsalında)

Türkiyənin şəhərsalma layihələndirilməsi praktikasında 1:5000 miqyasında ərazi planlaşdırılması layihələri mövcuddur. Əsas çizgilər Azərbaycan şəhərsalma layihə prinsiplərindən olan Baş Plan və müfəssəl plan layihələrinəəyni zamanda uyğun gələn daha geniş planlaşdırma təhlilləri ilə ifadə olunan bir layihə növüdür.

